Vəndam qəsəbəsi bu gün

(Əvvəli 6-cı səhifədə).

Ulu öndər əhalinin xahiş və arzularının yerinə yetirilməsi üçün elə rayonda səfərdə olarkən paytaxtdakı və yerdəki əlaqədar təşkilat rəhbərlərinə göstəriş verdi. Ümummilli liderin Vəndam qəsəbəsində əhali ilə səmimi, əvvəlcədən nəzərdə tutulmamış görüşü barədə xəbərlər tezliklə respublikamızın hər yerinə yayıldı. Qəzet və jurnalların ilk səhifələri ulu öndərin Vəndam ağsaqqalları ilə görüşünü əks etdirən şəkillərlə bəzənmişdi.

Vəndam qəsəbəsinin tarixinə qızıl hərflərlə əbədilik yazılacaq bir hadisə də əlavə olundu. Düz bir il sonra 2003-cü ilin oktyabr ayında, hələ o vaxt Azərbaycan Respublikası Prezidentliyinə namizəd olan möhtərəm cənab İlham Əliyev də Qəbələyə gələrkən Vəndam qəsəbəsində, elə həmin yerdə-bir il öncə ümummilli liderin dayandığı yerdə yolüstü dayanmış, əhali ilə səmimi görüşmüş, söhbət etmiş, bir il öncə dahi rəhbərin verdiyi tapşırıqların icrası vəziyyətini bir başa camaatdan öyrənmişdi.

Həmin tarixi görüşlərdən sonra Vəndam kəndinin inkişafı yeni vüsət aldı. Kəndə qəsəbə statusu verildi. Birinci növbədə işsizlik problemlərinin həlli üçün böyük tədbirlər görüldü. Vəndam qəsəbəsində və onun ətrafında çoxlu sayda turizm obyektləri, xidmət müəssisələri, istehsal sahələri istifadəyə verildi. Bu obyektlərdə və rayon mərkəzində, rayonun digər ərazilərində tikilib istifadəyə verilən xidmət və istehsal obyektlərində yüzlərlə vəndamlı gənclər və mütəxəssislər işlə təmin olundu.

Vəndam qəsəbəsi əhalisinin xeyli hissəsinin kənd təsərrüfatı ilə məşğulluğu nəzərə alındı. Burada əkinçiliyi, bağçılığı, heyvandarlığı inkişaf etdirmək üçün respublikanın əlaqədar təşkilatları və yerli hakimiyyət orqanları tərəfindən hər cür həvəsləndirici tədbirlər həyata keçirilir və maliyyə dəstəyi göstərilir. Qəsəbənin yaxınlığında müasir, nəhəng heyvandarlıq kompleksi istifadəyə verilmişdir.

Son illər qəsəbənin içərisindən keçən magistral yol genişləndirilmiş, qəsəbə boyu piyadalar üçün səkilər çəkilmiş, gecə işıqlandırılması təmin edilmişdir. Yolun genişləndirilməsi, səkilərin çəkilməsi, gecə işıqlandırılması, ticarət obyektlərinin yenidən tikilərkən yoldan xeyli kənarlaşdırılması səyəsində burada baş verən qəzaların sayı minimuma enmişdir.

Yol kənarındakı yöndəmsiz, heç bir memarlıq dəyəri olmayan və plansız tikilmiş ticarət obyektləri, köşklər, yenidən planlı şəkildə tikilmiş göz oxşayan tikililərlə əvəz olunmuşdur.

Magistral yolun kənarında bir neçə yerdə minik maşınlarının saxlanılması üçün dayanacaqlar düzəldilmişdir. Qəsəbə camaatının ərazinin qazlaşdırılması barədə arzusu da yerinə yetirilmişdir. Üç il bundan öncə qəsəbəyə təbii qazın verilməsi əhalinin məişət şəraitinin yaxşılaşdırılması ilə bərabər eyni zamanda yaşayış məntəqəsini əhatə edən nadir gözəlliyə malik təbiətin, meşələrin qorunmasında da əvəzsiz rol oynayır.

Yeni iş yerlərinin açılması, kənd təsərrüfatının stimullaşdırılması üçün görülən tədbirlər qəsəbə əhalisinin yaşayış səviyyəsini xeyli yüksəltmişdir. 10-15 il öncə Vəndam qəsəbəsindən xeyli sayda gənc iş tapmaq üçün ölkə paytaxtına, bəziləri isə Rusiya Federasiyasına gedirdisə indi bu proses əksinə dönməyə başlamış, xeyli sayda Vəndamlı işləmək üçün doğma qəsəbəsinə, ailəsinin yanına qayıtmışdır.

Qəsəbədə hər il yüzlərlə yaraşıqlı, müasir tələblərə cavab verən fərdi yaşayış evi tikilir. Artıq qəsəbədə minik maşınları dəbdəbə yox, tələbat vasitəsinə çevrilmişdir.

Vəndam qəsəbəsi öz inkişafının gənclik dövrünə qədəm qoymuşdur. Bu gənc inkişaf pillələrində artıq yetkinləşmiş Qəbələ şəhəri ilə sanki yarışa girmişdir.

Qüdrət SƏMƏDOV.

Gənc istedadımız

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 iyul 2011-ci il tarixli, 1621 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının 6.3.9 və 6.3.10 yarımbəndinin icrasını təmin etmək məqsədilə "Böyük səhnə" gənc ifaçıların Milli Musiqi Televiziya Müsabiqəsi layihəsinin həyata keçirilməsinə start verilmişdir.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 9-13 yanvar tarixləri aralığında Azərbaycanın iri şəhərlərində İTV kanalının "Böyük səhnə" verilişi üçün seçim kastinqləri baş tutmuşdur. Bu televiziya müsabiqəsinin böyük səhnəsində istedadına bələd hər bir gənc ifaçı qələbə qazanmaq və Avropanın ən önəmli musiqi yarışması olan "Eurovision"da iştirak etmək uğrunda mübarizədə öz gücünü sınaya bilmək şansını əldə edir.

Şəki şəhərində keçirilən zona mərhələsində Qəbələ rayonunu 3 nəfər gənc ifaçı təmsil etmişdir ki, onlardan da rayonun Tüntül kənd sakini Lətifov Alxan Nəcəf oğlu müsabiqədə qalib gələrək Respublika mərhələsinə vəsiqə qazanmışdır. İstedad, cəsarət və özünə inamın nəticəsidir ki, Alxan Lətifov "Böyük səhnə"nin komandası tərəfindən bəyənilərək növbəti mərhələdə Qəbələ rayonunu təmsil etməyə layiq görülmüşdür.

Gənc istedadımızı Gənclər və İdman İdarəsi təbrik edir və gələcək fəaliyyətində uğurlar arzulayır.

Məhəmmədəli SƏFƏRÇİNOV,
gənclər və idman idarəsinin
baş məsləhətçisi.

Unudulmamısan, keçmiş döyüşçü

İkinci dünya müharibəsi tarixə qanlı-qadalı, acılı və aclıqlı müharibə illəri kimi yazıldı. Faşist Almaniyası 22 iyun 1941-ci ildə Sovet İttifaqının ərazisinə qəflətən hücum etdi. Başlama səbəblərinin mahiyyətindən asılı olmayaraq, cahan müharibəsi öz qara əllərini çox evlərin qapılarına uzatdı. Məşum müharibə xəbərləri bumlu Surxay kişinin qapısını iki dəfə döydü. Gənclik qismətinə ölüm-dirim illərinin əzabları düşən Eyvaz Quliyevi atası Surxay kişi 1939-cu ildə öz xeyir-duası ilə Rus—Fin müharibəsinə yola salır. Onun gənclik çağı Rus—Fin və Böyük Vətən müharibələrinin ağrılı-acılı günləri ilə eyni vaxta düşmüşdü. Zaqatala kənd təsərrüfatı texnikumunun baytarlıq şöbəsini bitirərək əmək fəaliyyətinə yenicə başlayan Eyvaz Quliyevin taleyi birdən-birə dəyişir, ürəyində tutduğu arzular altüst olur. İki il Rus—Fin müharibəsində ön xətdə döyüşlərin ən ağır yerlərində iştirak edib, tərxis olunur və doğma vətənə—Bum kəndinə qayıdır. Sonra bir müddət müxtəlif kolxozlarda baytar həkimi sənətini yenidən davam etdirir.

İkinci dünya müharibəsinin başlanması ilə Azərbaycan xalqı da ümumi vətənin müdafiəsinə qalxdı. Milyonlarla sovet vətəndaşı kimi 38 yaşı yenicə tamam olmuş Eyvaz Quliyev ön cəbhəyə artıq hazırlıqlı əsgər kimi yollanır. Əvvəlcə Qafqaz dağlarının ətəklərindən başlayan Taqonroq uğrunda döyüşlərdə, daha sonra Ukrayna, Belarusiyanın azad edilməsində, Berlin sərhədlərində vuruşmuşdur. O, ən mürəkkəb döyüşlərin getdiyi Ukrayna, Belarusiyanın «Brest» qalasının azad edilməsində hünərlə vuruşur. Faşistlər yerigöyü oda qalayanda Eyvaz Quliyev Brest şəhərinin alınmasında döyüş dostlarından geri qalmır, əksinə döyüşdə fərqlənir. Onun döyüş rəşadəti Ali Baş Komandanın fərmanı ilə bir neçə medala, fəxri fərmana layiq görülür və qol saatı ilə mükafatlandırılır. Çox təəssüf ki, vuruşmanın sonuna yaxın o, yaralanır, həm də aldığı yara ağır olur. Hospitalda xeyli çəkən müalicədən sonra Eyvaz Quliyev II qrup müharibə əlili kimi 1944-cü ildə Vətənə qayıdır. Azərbaycana gələndən sonra E. Quliyev yenə baytar həkimi fəaliyyətini davam etdirir. O, Xırxatala, Həmzəlli, Laza, Bum, Qəmərvan kəndlərindəki kolxozlarında həm baytar məntəqələrinin müdiri, həm də baytar-texnik kimi işləyir. Öz peşəsinin bilicisi kimi harada işləyibsə əhali arasında böyük nüfuz, hörmət sahibi olub. Bu sakit təbiətli, təcrübəli baytar işçisi 44 il baytarlıq peşəsində qazandığı təcrübəsini peşə yoldaşları Dünyamin Quliyevdən, Davud Umarovdan və digər baytar işçilərindən də əsirgəməmişdir. Eyvaz Quliyev keçmiş kolxoz təsərrüfatlarında olan mal-qaranın sağlam inkişafına daim qayğı ilə yanaşmış, baş verə biləcək hər hansı bir yoluxucu xəstəliklərə qarşı mütəmadi olaraq mübarizə aparıb. Təcrübəli baytar işçisinin apardığı müalicə-profilaktik tədbirlər həmişə müsbət nəticə verib. Məhz bu yüksək fəaliyyətinə görə o, 1955-ci ildə Moskvada keçirilən Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində iştirak etmiş, dövlət onun əməyini fəxri fərmana və «Qızıl medala» layiq görmüşdür.

Bütün bunlarla yanaşı, Eyvaz Quliyev harada olursa-olsun dost-tanış arasında hörmət-izzət qazanmışdı, qohum-əqrəba arasında da həmçinin. Hələ cavan ikən onu qardaş-bacıları, doğmaları özlərinə ağsaqqal seçmişlər. Ciddi, mərd, vüqarlı olduğu qədər də etibarlı, mehriban, ədalətli, halallığı sevən və qayğıkeş kişi idi Eyvaz Quliyev.

Eyvaz kişi ailəsinə, mələk simalı həyat yoldaşı Əsmayə xanıma ömrünün sonuna qədər son dərəcə sadiq idi. Bu məhəbbət onun hisslərinə hakim kəsilmişdi. O, 8 övlad atası, 11 nəvə babası olub. Hamısı da cəmiyyətə, vətənə layiq tərbiyə alıb, atasının və babasının yolunu şərəflə davam etdirir.

Bax, belə bir kişi idi bumlu Eyvaz Quliyev. O «Vətənimin əsgəriyəm» deyərək son gününədək bu andına sadiq qaldı.

Amma zaman keçdikcə ikinci dünya müharibəsi iştirakçılarının sıraları seyrəlir. Onların hər biri şərəflə yaşadığı ömrü başa vuraraq dünyasını dəyişir. Eyvaz Quliyev qoynunda göz açdığı, dünyalar qədər sevdiyi Bum torpağına qovuşmağı Ulu Tanrıdan arzulamışdı. Tanrı onun arzusunu yerinə yetirdi. Onun yurdda ölmək, yurdda dəfn olmaq arzusu həqiqətə çevrildi və həmin kəndin torpağına Eyvaz Quliyevi 1974-cü ildə əmanət etdilər.

«QƏBƏLƏ».